**Azərbaycan Dövlət Iqtisad Universiteti (UNEC)**

**Təsdiq edirəm:**
**”Biznes və logistika” kafedrasının**
**müdiri: i.e.n., dos. M.Ə.Əliyev**
**09.09. 2025-ci il**

# “BEYNƏLXALQ NƏQLİYYAT ƏMƏLİYYATLARI ” fənni üzrə
# İŞÇİ TƏDRIS PROQRAMI
# (Sillabus)

## I. Fənn haqqında məlumat

**Fənnin kodu:** **0177**
**Fənnin növü:** *əsas/seçmə*
**Tədris ili:** *2025/2026*
**Tədris semestri:** *yaz/payız*
**Tədris forması:** *əyani/qiyabi/onlayn*
**Fakültə:** Biznes və menecment
**Qrup:** **950/4, 950/5**
**Tədris yükü:** 180 *saat (60/120)*
**Kredit sayı:** **______4______**

## II. Müəllim haqqında məlumat

**Fənni tədris edən müəllim:** **dos. N.Ş. Balabəyova**
**Kafedra:** **Biznes və logistika**
**E-mail ünvanı:** **balabekova_narmina@mail/ru**
**İş telefonu:**
**Tələbələr üçün qəbul vaxtları:** **I və II günlər**

## III. Fənnin təsviri

"Beynəlxalq nəqliyyat əməliyyatlar" kursunun aktuallığı bu xidmət sahəsinin rolunun sürətlə artması ilə izah edilir. Belə ki, beynəlxalq iqtisadi münasibətlərin və xarici-iqtisadi fəaliyyətin genişlənməsi, xarici-ticarət əməliyyatların həcminin sürətlə artması, bu sahənin əhəmiyyətini şərtləndirən əsas amillərdəndir.

Müasir dövrdə beynəlxalq nəqliyyat sistemləri və onlarınbaşlıca xüsusiyyətləri dünya iqtisadi proseslərinin xüsusiyyətləriilə üst-üstə düşür. Başqa sözlə, dünya iqtisadiyyatı qloballaşdıqcavə iqtisadi transformasiyalara məruz qaldıqca, beynəlxalqnəqliyyat əməliyyatlarının genişləndirməsi, bu xidmətlərintəkmilləşdirilməsi və effektivliyinin artırılması zərurəti yaranır. Bu baxımdan səmərəli nəqliyyat əməliyyatlarının təşkili, busahənin intensiv inkişafı, beynəlxalq nəqliyyat qovşaqlarının vəmarşrutlarının təkmilləşdirilməsi, nəqliyyat əməliyyatları üzrə beynəlxalq hüquq normalarının və nizamlayıcı konvensiyaların,nəqliyyat rejimlərinin effektivliyinin artırılması yükdaşımaprosedurlarının sadələşdirilməsi, nəqliyyat təhlükəsizliyinintəmin edilməsi və digər mühüm tədbirlərin həyata keçirilməsiməsələləri aktuallığı ilə seçilir.

## IV. Fənnin məqsədi və vəzifələri

"Beynəlxalq nəqliyyat əməliyyatları" fənni "Beynəlxalq ticarət və logistika" istiqamətinin əsas fənnlərindən biridir. Bu fənnin öyrənilməsinin məqsədi tələbələrdə ayrı-ayrı nəqliyyat daşıma növləri, yük və sərnişin daşımalarının təşkil olunması və idarə edilməsi sahəsində nəzəri və praktik biliklərin aşılanmasıdır.

Kursun başlıca məqsədi beynəlxalq nəqliyyat əməliyyatları anlayışının mahiyyətini, növlərini, məzmununu və bu sahənin işinin təşkili, nizamlanması, hüquqi əsaslarının formalaşdırılması məsələlərini öyrənməkdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır

- Daşıma modellərinin növlərini, əsas anlayışları və terminləri,
- Yük daşımada istifadə olunan nəqliyyat növlərini, daşıma prosesinin prinsiplərini, daşıma prosesində iştirak edən tərəfləri və onların hüquqi məsuliyyətlərini,
- Müxtəlif daşıma növlərini, təhlükəsizlik və ətraf mühitin qorunması qaydalarını öyrənmək,
- Ölkənin nəqliyyat şəbəkəsinin beynəlxalq nəqliyyat şəbəkəsinə inteqrasiya istiqamətindəki fəaliyyətinin gücləndirilməsi istiqamətində təsirli tədbirlərin görülməsi
- Tələbələri yeniliyə və müasir milli ruhda yetişdirmək.

## V. Fənnin təlim nəticələri:

Bu fənni bitirdikdən sonra tələbələr müxtəlif nəqliyyat növlərindən istifadə etməklə beynəlxalq nəqliyyat əməliyyatlarının təşkil olunması sistemini, dünya nəqliyyat bazarının müxtəlif seqmentlərinin fəaliyyət göstərməsinin nəzəri əsaslarını və əməliyyatların təşkili mexanizmini, beynəlxalq nəqliyyat əməliyyatlarının sığortalanmasını, beynəlxalq nəqliyyat əməliyyatlarını tənzimləyən yerli və beynəlxalq normativ aktlar haqqında biliyə sahib olacaqlar.

Belə ki, beynəlxalq nəqliyyat əməliyyatları və onun beynəlxalq nəqliyyat daşımaları üçün əhəmiyyəti, səmərəli nəqliyyat əməliyyatlarının təşkili, bu sahənin intensiv inkişafı, beynəlxalq nəqliyyat qovşaqlarının və marşrutlarının təkmilləşdirilməsi, nəqliyyat əməliyyatları üzrə beynəlxalq hüquq normalarının və nizamlayıcı konvensiyaların, nəqliyyat rejimlərinin effektivliyinin

artırılması, yükdaşıma prosedurlarının sadələşdirilməsi, nəqliyyat təhlükəsizliyinin təmin edilməsi və digər mühüm məsələlər barədə biliyə malik olacaqlar.

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- "Beynəlxalq nəqliyyat əməliyyatları" fənninin predmeti, məqsədi və vəzifələrini;
- Beynəlxalq daşıma modellərinin növlərini, əsas anlayışları və terminləri,
- Beynəlxalq yük daşımada istifadə olunan nəqliyyat növlərini, daşıma prosesinin prinsiplərini,
- Beynəlxalq daşıma prosesində iştirak edən tərəfləri və onların hüquqi məsuliyyətlərini,
- Müxtəlif daşıma növlərini, təhlükəsizlik və ətraf mühitin qorunması qaydalarını
- Beynəlxalq daşımalarında iştirak edən nəqliyyat növlərinin üstün və çatışmayan cəhətlərini;
- Beynəlxalq yük daşımalarında nəqliyyat ekspeditor xidmətini;
- Beynəlxalq daşımaların həyata keçirilməsində beynəlxalq əməkdaşlığı;

**Bacarmalıdırlar:**

- Fənnin tədrisi əsasında qazanılmış bilik və bacarığını əmək fəaliyyətinin müxtəlif sahələrində tətbiq etməyi;
- Beynəlxalq nəqliyyat daşımalarının praktikasının təşkilati-hüquqi tənzimlənməsini təhlil etməyi;
- Birbaşa dünya daşınmaları, yüklərin intermodal (qarışıq) daşınmaları, nəqliyyat xidmətləri üzrə dünya bazarının xüsusiyyətlərini öyrənərək bunları praktiki məkanda tətbiq etməyi;
- Daşıma prosesində iştirak edən nəqliyyat vasitələrinə görə beynəlxalq daşımaların növlərini fərqləndirməyi:
- Beynəlxalq daşıma münasibəti iştirakçılarının hüquq və vəzifələrinin müəyyən edilməsini;
- Yüklərin daşınması müqavilələrinin tərtib olunması, beynəlxalq nəqliyyat yük daşınmalarında vasitəçilik əməliyy atlarının yerinə yetirilməsi üzrə biliklərə yiyələnməyi;
- Nəqliyyat üzrə vahid strateji yanaşmanı əks etdirən ümumiləşdirilmiş tədbirlərin həyata | keçirilməsi əsasında Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində rəqabət qabiliyyətinin yüksəldilməsini təmin etməyi

## VI. Fənnin mühazirə mövzuları

1. Beynəlxalq yükdaşımalarda nəqliyyat logistikasının yeri və rolu -2saat
2. Nəqliyyat növlərinin xüsusiyyətləri və yüklərin beynəlxalq nəqliyyat təsnifatı. Əsas beynəlxalq nəqliyyat marşrutları-2 saat
3. Malların daşınmasının bazis şərtlərinin onların nəqledilməsinin təşkilinə təsiri. İnkoterms-2020
4. Beynəlxalq nəqliyyat əməliyyatlarının tənzimlənməsinin hüquqi mexanizmi
5. Beynəlxalq dəniz (çay) daşımaları -4s
6. Beynəlxalq hava daşımalarının təşkili
7. Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili
8. Dəmir yolu nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili
9. Beynəlxalq boru kəməri daşımaları
10. Beynəlxalq qarışıq (intermodal) daşımaların təşkili
11. Təhlükəli yüklərin beynəlxalq daşınmasının təşkili
12. Beynəlxalq yükdaşımalarında nəqliyyat ekspeditor xidmətləri
13. Beynəlxalq nəqliyyat daşımalarında sığorta və təhlükəsizlik əməliyyatları
14. Azərbaycan Respublikasında beynəlxalq yük daşımaların təşkili

## VII. Prerekvizitlər

Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.

## VIII. Fənnin tədris metodologiyası

"Beynəlxalq nəqliyyat əməliyyatları" fənninin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, kiçik qruplarda iş, işgüzar oyunlar, sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər.

Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Əsas dərslik və ədəbiyyat


1. E.Eyvazov, N.Balabəyova "Beynəlxalq nəqliyyat əməliyyatları" Bakı-2019, "Elm və təhsil" səh. 335
2. Azərbaycan Respublikası nəqliyyat qanunvericiliyi (2005). Bakı, 820 səh.
3. Azərbaycan Respublikası "Avtomobil yolları haqqında" Qanunu. Bakı, 2000-ci il.
4. Azərbaycan Respublikası "Aviasiya haqqında" Qanunu.Bakı, 2005-ci il.
5. Azərbaycan Respublikası dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı
6. E.Ə. Əliyev (2008) Beynəlxalq daşınmaların hüquqi tənzimlənməsi. Bakı, 524 səh.
7. E.Ə. Əliyev (2005) Azərbaycan Respublikasında nəqliyyat hüququ. Bakı, 520 səh.
8. Dayanıqlı nəqliyyat siyasətinin təhlili, təcrübə və tövsiyələr (2013). Ekoleks ekoloji hüquq mərkəzi.
9. E.M. Hacızadə. Azərbaycanın dəmir yolu nəqliyyatı sistemi: infrastruktur təminat və tranzit potensial. http://elshanhajizadeh.com/az/article-view/14/879/.
10. "Dünya dəmir yolları" jurnalının saytı. -www.zdmira.com.
11. Azərbaycan Dəmir Yolları» QSC-nin saytı.-http://addy.gov.az.
12. Azərbaycan Statistik Göstəriciləri. Bakı, 2014. - 812 s.
13. Т.И. Балабанова (2000). Внешнеэкономические связи. М.: 514 с.
14. Международные грузоперевозки. М.: Интернетресурсы: https://lcmg.ru].


## X. Fənnin mühazirə mətnləri

Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | Beynəlxalq yükdaşımala-rında nəqliyyat logistika- | Logistika anlayışı, əsas funksiyası, "logistikanın prinsipləri, nəqliyyat | E.Eyvazov, N.Balabəyova |

| | | | |
|---|---|---|---|
| | sının yeri və rolu | logistikasının mahiyyəti və vəzifələri, logistika və multimodal daşımalar haqqında məlumat verilir. "Nəqliyyat anlayışı. Dünya nəqliyyat sisteminin maliyyəti. | "Beynəlxalq nəq liyyat əməliyyatları" Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaların hüquqitənzim-lənməsi. Bakı, |
| **2** | Nəqliyyat növlərinin xüsusiyyətləri və yüklərin beynəlxalq nəqliyyat təsnifatı. Əsas beynəlxalq nəqliyyat marşrutları | Beynəlxalq nəqliyyat daşımalarında iştirak edən nəqliyyat növləri, onların xüsusiyyətləri və inkişaf tendensiyaları: dəniz, dəmir yolu, avtomobil, hava nəqliyyatının müasir mərhələdə inkişaf xüsusiyyətləri.Mövcud nəqliyyat növlərinin daşıma qabiliyyəti və tarifləşdirilməsi. Yüklərin nəqliyyat xüsusiyyətləri və geniş təsnifatı. Əsas beynəlxalq nəqliyyat marşrutları və dəniz limanları. Avropa limanları və beynəlxalq nəqliyyat dəhlizləri.<br>. | E.Eyvazov, N.Balabəyova "Beynəlxalq nəq liyyat əməliyyatları" Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaların hüquqitənzim-lənməsi. Bakı, |
| **3** | Malların daşınmasının bazis şərtlərinin onların nəql edilməsinin təşkilinə təsiri. İnkoterms 2020 | "İnkoterms" beynəlxalq nəqliyyat terminləri ilə nəqliyyat-yük daşımalarının qarşılıqlı bağlılığı. Beyəlxalq nəqliyyat daşımaları üzrə bazis şərtləri, onların seçilməsi və spesifik xüsusiyyətləri. Daşınmanın bazis şərtinin məqsəd və vəzifələri. Bazis şərtlərinin nəqletməyə görə təsnifatı: əsas xərclərə, yüklənməyə, sığortaya, gömrük rəsmiləşdirilməsinə, əsas payın kimin üzərinə düşməsinə görə məlumatlıar verilir. | E.Eyvazov, N.Balabəyova "Beynəlxalq nəq liyyat əməliyyatları" Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaların hüquqitənzim-lənməsi. Bakı, |
| **4** | Beynəlxalq nəqliyyat əməliyyatlarının tənzimlənməsinin hüquqi mexanizmi | Beynəlxalq nəqliyyat hüququnun predmeti, beynəlxalq dəniz daşımalarının hüquqi tənzimlənməsi,beynəlxalq aviadaşımaların hüququ tənzimlənməsi, beynəlxalq dəmir-yol daşımalarının hüquqi tənzimlənməsi, beynəlxalq avtomobil daşımalarının hüquqi tənzimlənməsi, beynəlxalq boru kəməri nəqliyyatının hüquqi tənzimlənməsi | E.Eyvazov, N.Balabəyova "Beynəlxalq nəq liyyat əməliyyatları" Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaların hüquqitənzim-lənməsi. Bakı, |
| **5** | Beynəlxalq dəniz (çay)daşımaları | Beynəlxalq iqtisadi əlaqələrin və xarici-iqtisadi fəaliyyətin təşkilində, o cümlədən dünya ticarətində dəniz nəqliyyatından istifadənin üstünlükləri. Dünya dəniz nəqliyyatının təsnifatı. Beynəlxalq dəniz daşımalarının hüquqi tənzimlənməsi, beynəlxalq konvensiyalar və razılaşmalar. Dəniz nəqliyyatı ilə yükdaşımaların sənədləşdirilməsi (konosament). Beynəlxalq Dəniz Təşkilatı (İMO).<br>Beynəlxalq daşımalarda su (çay) daşımalarının rolu və əhəmiyyəti. Beynəlxalq çay nəqliyyatı haqqında məlumat, onun predmeti, xüsusi prin- | E.Eyvazov, N.Balabəyova "Beynəlxalq nəq liyyat əməliyyatları" Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaların hüquqitənzim-lənməsi. Bakı, |

| | | | |
|---|---|---|---|
| | | sipləri. Beynəlxalq su(çay) nəqliyyatının üstün və çatışmayan cəhətləri. Su (çay) nəqliyyatı ilə beynəlxalq xarici ticarət daşımalarının növləri: ixrac daşıması, idxal daşıması, tranzit daşıma, xarici fraxtedənlərin yüklərinin daşınması. Beynəlxalq su (çay) nəqliyyatının başqa nəqliyyat növləri ilə müqayisədə üstün cəhətləri. Beynəlxalq çay nəqliyyatı ilə dəniz nəqliyyatı arasında oxşar və fərqli cəhətlər. Beynəlxalq su (çay) nəqliyyatının spesifik cəhətləri. | |
| **6** | Beynəlxalq hava daşımalarının təşkili | Beynəlxalq hava daşımaları anlayışı və onun növləri. Beynəlxalq hava daşımalarının hüquqi tənzimlənməsi. Beynəlxalq hava daşımaları haqqında qaydalar. Hava nəqliyyatı sahəsində Beynəlxalq təşkilatlar. Hava nəqliyyatının üstün və mənfi xüsusiyyətləri. Hava nəqliyyatında sığortanın mühüm əhəmiyyəti Beynəlxalq hava daşımaları təşkilində “Beynəlxalq mülki aviasiya haqqında” 1944-cü il Çikaqo Konvensiyasının rolu. Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası (1945-ci il). Beynəlxalq Hava Daşımaları Assosiasiyası (1971-ci il). | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları n hüquqitənzim-lənməsi. Bakı, |
| **7** | Avtomobil nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili | Beynəlxalq avtomobil daşımaları anlayışı və mahiyyəti. Avtomobil nəqliyyatı vasitələrinin təsnifatı. Avtomobilnəqliyyatının texniki-iqtisadi əsasları. Avtomobil nəqliyyatının Beynəlxalq yük daşımaları əməliyyatlarında müs bət və mənficəhətləri. Beynəlxalq avtomobil daşımalarının hüquqitənzimlənməsi prosesləri. Beynəlxalq avtomobil daşımalarında müqavilələr, sənədləşmələr və normativ aktlar (sazişlər, konvensiyalar). Beynəlxalq Avtomobil Nəqliyyatı İttifaqı (1948-ciil) | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları n hüquqitənzim-lənməsi. Bakı, |
| **8** | Dəmir yolu nəqliyyatı ilə beynəlxalq daşımaların təşkili | Beynəlxalq dəmir yolu ilə daşıma anlayışı, onun təşkili və xüsusiyyətləri. Beynəlxalq dəmir yolu daşımalarınınnövləri. Beynəlxalq dəmir yolu ilə daşımalar üzrə sazışlər,konvensiyalar və beynəlxalq (regional) təşkilatlar. Dəmir yolu iləbeynəlxalq yük daşımaları haqqında Saziş (1950-ci il). | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq -liyyat əməliyyat-ları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaların hüquqitənzim-lənməsi. Bakı, |
| **9** | Beynəlxalq boru kəməri daşımaları. | Beynəlxalq boru kəməri daşımalarının mahiyyəti.Boru kəməri nəqliyyatının spesifik xüsusiyyətləri. Boru kəmərləri ilə nəqletmə proseslərinin təşkili, mexanikləşdirmə və avtomatlaşdırma prosesləri. Beynəlxalq boru kəməri daşımalarının hüquqi tənzimlənməsi. Beynəlxalq boru kəməri daşımalarının təşkili qaydaları. Avropa Enerji Xartiyası (1991-ci il). Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafına dair beynəlxalq nəqliyyat haqqında əsas coxtərəfl Saziş (1998-ci il). Dövlətlərarası neft vəqaz | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları n hüquqitənzim-lənməsi. Bakı, |

| | | | |
|---|---|---|---|
| | | nəqli sistemlərinin yaradılması üçün təşkilati prinsiplərə dairÇərçivə Sazişi (1999-cu il) | |
| **10** | Beynəlxalq qarışıq və multimodal daşımaların təşkili. | Beynəlxalq qarışıq (intermodal) daşıma anlayı-şı, onun əsas xüsusiyyətləri, şərtləri və təşkili. Dövlətlərarası qarışıq daşımanın qarışıq daşı-malardan fərqi. İntermodal daşımaların fayda-sı. İntermodal daşımanın üstün cəhətləri. Qa-rışıq daşımanı unimodal daşımadan fərqləndi-rən xarakterik cəhətlər. Daşımaların operator tərəfindən vahid daşıma sənədi əsasında daşın-ması. Beynəlxalq intermodal daşıma sənədlə-rinin tipləri. Beynəlxalq qarışıq daşıma sənədi | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları n hüquqitənzim-lənməsi. Bakı, |
| **11** | Təhlükəli yüklərin beynəlxalq daşınmasının təşkili | Təhlükəli yüklərin təsnifatı.Markalanması. Beynəlxalq daşımalarda təhlükəli və iriqa-baritli yüklərin daşınmasının xüsusiyyətləri. Təhlükəli yüklərin beynəlxalq daşınması üzrə Avropa müqaviləsi.Daşımaların marşrutu. İcazəsi. Təhlükəli və iriqabaritli yüklərin rəsmiləşdirilməsi qaydaları. | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları n hüquqitənzim-lənməsi. Bakı, |
| **12** | Beynəlxalq yükdaşımalarında nəqliyyat ekspeditor xidmətləri | Nəqliyyat-ekspedisiya firmaları, onların yerinə yetirdikləri əsas əməliyyatlar, əlavə xidmətləri, ekspeditorun seçilməsi problemi, multimodal nəqliyyat operatoru haqqında məlumat verilir | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları n hüquqitənzim-lənməsi. Bakı, |
| **13** | Beynəlxalq nəqliyyat daşımalarında sığorta və təhlükəsizlik | Beynəlxalq nəqliyyat daşımalarında nəq-liyyat təhlükəsizliyi anlayışı və onun əsas xüsusiyyətləri, beynəlxalq nəqliyyat təhlükəsizliyinin təmin edilməsinin başlıca prinsipləri, Nəqliyyat təhlükəsizliyi üzrə beynəlxalq hüquqi təminat,multimodal daşımalar üzrə nəqliyyat növlərinin təhlükəsizliyi barəsində məlumatlar verilir. Nəqliyyat riskləri, nəqliyyat vasitələrinin sığortalanması (kasko sığorta), avtomobil nəqliyyatı və digər nəqliyyat vasitələrinin sığortalanması, yüklərin sığortalanması (karqo sığorta) haqqında məlumat verilir. | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları n hüquqitənzim-lənməsi. Bakı, |
| **14** | Azərbaycan Respublika-sında beynəlxalq yük da-şımaların təşkili. | Azərbaycanın nəqliyyat sistemi və onun müasir vəziyyəti. AR nəqliyyat sisteminin hüquqi – normativ bazası və əsasları, AR BMT-nin Avropa Komissiyası çərçivəsində qoşulduğu sazişlər və konvensiyalar, AR beynəlxalq yük daşınmaları üzrə dünya dövlətləri ilə | E.Eyvazov, N.Balabəyova “Beynəlxalq nəq liyyat əməliyya-tları” Bakı-2019 E.Ə. Əliyev (2008) Beynəl-xalqdaşınmaları |

| | | | |
|---|---|---|---|
| | | Sazişləri haqqında məlumatlar. | n hüquqitənzim-lənməsi. Bakı, |
| | **Yekun imtahan** | | |

**XIII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə**

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbə modul ərzində 100 bal toplamalıdır. 20 bal seminar (məşğələ) dərsində toplanır. Tələbə seminar balını gündəlik olaraq dərsdə aktivlik göstərməklə toplayır. Tələbə hər 10 bal qiymətləndirildikdə yekunda hesabına 5 bal toplayır. Beləliklə tələbə dərslər zamanı ən azı 4 dəfə qiymət almalıdır ki, cəmi 20 bal toplamış olsun. Tələbənin dərsə davamiyyəti qeydə alınır. Davamiyyət tələbənin aktivlik balının toplanmasında əhəmiyyət kəsb edir.

Seminarlar frontal sorgu, yazılı tapşırıqlar, testlər, keyslər və tələbələrin hazırladıqları prezentasiyalar üzrə keçirilir.

**XIV. Sərbəst işlər (Qrup işi):** nəzərdə tutulmayıb.

**XV. Fənn üzrə qiymətləndirmə**

**Biliyin qiymətləndirilməsi sistemi**

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Yekun imtahan | 80 bal | 80% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | yaxşı | C |
| 61-70 bal | kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahan test üsulu ilə keçiriləcəkdir. Test 40 sualdan ibarət olacaqdır. Hər bir sual 2 baldır. Səhv cavablanan suallar, düzgün cavablanan sualların ballarını silmir. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə baglı tələbənin hər-hansı şikayəti olarsa, Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.



Tərtib etdi: dos. N.Ş.Balabəyova